# Qumru

*Qarabağ döyüşlərində şəhid olmuş əmim Təbrizin əziz və müqəddəs xatirəsinə.*

**hekayə**

Yay təzə girsə də, istilər çox erkən düşmüşdü. Gecələr hava sazaq, gündüzlər isə bürkü olurdu. Murovun zirvəsindəki qar da elə bil vaxtından əvvəl ərimişdi. Ətəyində hissəmiz yerləşən təpənin üstündə meşəlik sıx olsa da, aşağıda, bizim mövqelərimizin qarşısında ağaclar seyrək idi. Lakin istehkamımızın qarşısında ucalan azman palıd ağacının iri budaqları sallanaraq nəhəng çətir kimi ətrafa qara kölgə salır, havaya xəfif bir sərinlik gətirir, bizi günəşin istisindən qoruyurdu.

Dünən axşamdan başlayan və gecəboyu davam edən atışmada ermənilərin dərsini yaxşı vermişdik. Gündüz isə atəş səsləri kəsiləndən sonra bizə dincəlmək üçün bir saat vaxt verilmişdi. Döyüşçü yoldaşım Aslan oturduğu yerdə dəbilqəsini gözünün üstünə endirərək mürgüləyir, mən isə papiros tüstülədirdim. Barıt qoxuyan havada heç bir canlı görünmür, hüznlü bir sakitlik hökm sürürdü. Heç kim dinibdanışmır, yaranmış sükunəti pozmurdu. Palıdın yarpaqları isə elə bil bu sakitliyə meydan oxuyur, aramsız bir pıçıltı ilə titrəşərək xışıldayır, adamın yorgunluğuna qəribə və həzin bir rahatlıq gətirirdi.

Ermənilərin döyüş mövqeləri yaxınlıqda olduğundan biz hərdən onların ucadan danışdıqları sözləri və Azərbaycan dilində işlətdikləri qırıq ifadələri aydın eşidirdik. Onlar ara-sıra havaya atəş açaraq, sanki tətikdə olduqlarını bizə bildirmək istəyirdilər.

Yaranmış sükutu birdən qocaman palıdın başında oxumağa başlayan qumrunun nagahan səsi pozdu. Quşcuğaz coşğun bir şövq və avazla elə oxuyurdu ki, sanki nə bu müharibədən xəbəri vardı, nə də lənətə gəlmiş ermənilərı tanıyırdı. Qumrunun oxumağı Aslanın da yuxusunu qaçırmışdı. O, avtomatını sinəsinə bərk-bərk sıxaraq bu qayğısız, balaca quşcuğazın səsinə diqqət kəsilmiş, yol çəkən yorğun gözlərini bir nöqtəyə zilləmişdi.

Qumru isə oturduğu ucalıqdan sağa-sola boylanaraq öz nəğməsini oxuyur, ermənilərin atdıqları güllələrin səsinə məhəl qoymurdu. Mən heyrət dolu nigarançılıqla quşcuğazı seyr edir, onun mərdanəliyinə heyran qalmışdım. Elə bil ürəyimə dammışdı ki, qumru öz nəğməsini başa çatdıra bılməyəcək. Qəlbimin pıçıltısı ilə onu uzaqlara, çox uzaqlara uçub getməsi, güllə səslərindən uzaq olması üçün yalvarırdım. Qumru isə, təbii ki, məni eşitmir, oxuyur, hey oxuyurdu...

Qəfil açılan güllə quşcuğazın nəğməsini yarımçıq kəsdi və o oturduğu uca budaqdan ləngər vura-vura daş kimi bizim səngərimizə düşdü. Mən tez onu əlimə götürərək yerdən qaldırdım. Lakin quşcuğaz gözlərini yummuş, əbədi olaraq susmuşdu. Erməni gülləsi bu günahsız varlığın xırdaca ürəyini parçalamış, sinəsi qana bələnmişdi!..

**Anar RÜSTƏMLİ.**

# Qəbələmizin uğurları

Müstəqilik qazandıqdan sonra ölkəmiz idman sahəsində bir sıra uğurlu nəticələrə imza atmışdır. Çox sevindirici haldır ki, bu gün Azərbaycanın idman sahəsində qazanılmış uğurlarının səsi dünyada öz sözünü demiş ölkələrdən gəlir. Təbii ki, bu, möhtərəm Prezidentimiz İlham Əliyevin idmana göstərdiyi misilsiz qayğının nəticəsində olmuşdur. Bu qayğıdan bizim məktəbimizə də pay düşür.



Naməddin Yunusov.



Namiq Yaralıyev.

Qəbələ şəhər 4 saylı tam orta məktəbində təhsil alan şagirdlər nəinki ölkə səviyyəsində keçirilən yarışlarda, hətta beynəlxalq səviyyəli yarışlarda da yüksək nəticələr əldə etmişlər. Məktəbin 7-ci sinif şagirdi Naməddin Yunusov Dağıstanda Sovet İttifaqı qəhrəmanı Şəmsulla Əliyevin 100 illik yubileyi münasibətilə keçirilmiş xatirə yarışında 55 kiloqram çəki dərəcəsində 1-ci yerə layiq görülmüşdür. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş cüdo üzrə yeniyetmələr arasında keçirilmiş yarışda isə 3-cü yeri tutmuşdur.

Məktəbimizin daha bir şagirdi Yaralıyev Namiq Natiq oğlu 2015-ci ildə Bakı şəhərində keçiriləcək birinci Avropa Oyunlarının proqramına daxil edilmiş ildman növlərinin məktəblilər arasında təbliğinə həsr edilmiş kütləvi ilman tədbirlərində I yer tutduğuna görə diplomla təltif edilmişdir. Bundan başqa Namiq Yaralıyev həvəskar boksçular arasında keçirilən yoldaşlıq görüşündə də I yer tutduğuna görə diploma layiq görülmüşdü.



Cavidan Sərkərli.

8-ci sinif şagirdi Cavidan Sərkərli Rusiyada 1941-1945-ci illərdə alman faşizmi ilə müharibədə böyük Qələbənin 70 illiyinə həsr olunmuş 40 kq çəki dərəcəsində boks üzrə keçirilmiş yarışda I yeri qazanmışdır.

Biz inanırıq ki, idmançılarımızın adı gələcəkdə daha yüksək səviyyəli idman yarışlarından gələcək, Azərbaycan bayrağı neçə-neçə ölkələrin idman arenalarında əzmlə dalğalanacaq.

Yolunuz açıq olsun, əziz idmançılarımız.

**Mövlud MAHMUDOV,**
**məktəbin idman rəhbəri.**

# Gözəl balamız Fatimə!

Səni 3 yaşın tamam olması münasibətilə babaların Qüdrət, Hidayət, nənələrin Tamella, Mülayim, dayın Səxavət, xalaların Aynur, Həmidə, bibin Vəfa, əmin Səməd, anan Rəna və atan Vüsal təbrik edirlər.

**Ad günün mübarək!**




# Oxucuların nəzərinə!

## «Qəbələ» qəzetinə

**2015-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.


# Elan

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Mıxlıqovaq kənd sakini Səmədov Samir Ənvər oğluna və ailə üzvlərinin adına 22 noyabr 1997-ci il tarixli 35 saylı qərarla verilmiş JN-0781 №-li (kod 40614018) **Torpağa Mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ RTŞ-nin kollektivi metodmərkəzin müdiri **Arifə Bayramovaya**, qardaşı

**SƏYAVUŞ BAYRAMOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ şəhər 1 saylı tam orta məktəbin kollektivai **Şəmsiyyə, Sədaqət, Nüşabə, Arifə Bayramovalara**, qardaşları

**SƏYAVUŞ BAYRAMOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin kollektivi rayon icra hakimiyyəti başçısının müavini **Ətayə Osmanovaya** və 2 saylı məktəbin direktoru **Təranə Səlimovaya**, əzizləri

**VÜQAR SƏLİMOVUN**

vaxtsız vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin kollektivi **Şəmsiyyə, Nüşabə, Sədaqət** və **Arifə Bayramovalara**, qardaşları

**SƏYAVUŞ BAYRAMOVUN**

vaxtsız vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi: N. R. Atakişiyev.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospektii, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir. Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.